# SOSİAL-İQTİSADİ İNKİŞAFIN YENİ YÜKSƏK MƏRHƏLƏSİ

**Müstəqil Azərbaycan bu gün hərtərəfli, geniş və dinamik inkişaf yolundadır. Müasir texnologiya ilə istehsal olunan ümumi daxili məhsullarına dünya bazarında tələbat isə mütəmadi surətdə artmaqdadır. Diqqətəlayiq haldır ki, ölkə hər ili yeni uğurlarla və artımla yekunlaşdırır. 2015-ci il Azərbaycanın inkişafında iqtisadiyyatın daha da şaxələndirilməsi və sənayeləşmənin yeni yüksək pilləsi, beynəlxalq siyasi nüfuzun artması dövrüdür.**

Qəbul edilmiş sosial-iqtisadi proqramlar düşünülmüş siyasətlə proqnozlaşdırılaraq hazırlandığı üçün ölkənin hərtərəfli tərəqqisi davamlıdır. Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosialiqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində əldə edilmiş nəticələr barədə demişdir: “Azərbaycanda iqtisadiyyat inkişaf edir. Bax indi gətirəcəyim rəqəmlər bunu göstərəcək və sübut edəcək ki, bu doğrudan da tarixi nailiyyətdir. Beləliklə, 6 ayda iqtisadiyyat 5,7 faiz artmışdır. Bu, çox gözəl göstəricidir, ölkəmizin dinamik inkişafını sübut edir. Bundan da gözəl göstərici qeyri-neft sektorunun inkişafıdır. Burada da biz 9,2 faiz artım görürük. Yəni bundan yuxarı nəticə ola bilməz. Sənaye istehsalı təxminən 4 faiz artmışdır. Qeyri-neft sənayesi 14 faizdən çox artmışdır. Bu da son illərdə sənayeləşmə, yeni sənaye zonalarının yaradılması ilə bağlı görülmüş işlərin, tədbirlərin nəticəsidir”.

Göründüyü kimi, şaxələndirilmə, qeyri-neft sektoru sahələrinin dinamik inkişafı kifayət qədər sürətlidir. İqtisadiyyatın innovativ inkişafı, ixrac potensialının davamlı surətdə artırılması istiqamətində həyata keçirilən islahatlar, vaxtında reallaşdırılan layihələr davamlı inkişafı təmin edən səbəblərdəndir. Təbii ki, sosialyönümlü fəaliyyət nəticədə əhalinin rifah halına da öz təsirini göstərir. Dövlət başçısı bu barədə deyib: “Azərbaycanda inflyasiya aşağı səviyyədədir - 3,5 faiz. Əhalinin pul gəlirləri ənənəvi olaraq inflyasiyanı üstələyir və 6,2 faiz artmışdır... Birinci 6 ayda ölkəmizdə 60 minə yaxın yeni iş yeri açılmışdır ki, onlardan 48 mini daimi iş yeridir... Azərbaycanda, ümumiyyətlə, son 12 il ərzində 1 milyon 400 min iş yeri açılmışdır ki, onlardan 1 milyonu daimidir. Bunun hesabına Azərbaycanda işsizlik 5 faiz səviyyəsində olmuşdur. Bütün mötəbər beynəlxalq maliyyə qurumları Azərbaycanda işsizliklə, yoxsulluqla mübarizəni çox yüksək qiymətləndirir”.

Regionlarda böyük quruculuq və abadlıq işlərinin görülməsi, beynəlxalq səviyyəli innovativ yerli sənaye və emal müəssisələrinin yaradılması davam edir. Bu intensiv proses sayəsində ölkədə iqtisadi sahələrdə hər il yeni artım baş verir. Dövlətin apardığı məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatda çoxşaxəlilik daim inkişaf edir və hər bir sahədə layihələr, müvafiq dövlət proqramları ilə müəyyənləşdirilən tədbirlər dəqiq mexanizmlərlə həyata keçirilir. Azərbaycan iqtisadi modelində əsas xüsusiyyət budur ki, yerli potensial hərtərəfli öyrənilir, bu qiymətləndirməyə əsasən milli mənafelərə uyğun layihələr icra olunur, beynəlxalq standartlara cavab verən uyğun məhsul istehsal olunur. Təbii ki, dünya bazarlarında gedən proseslərin inkişaf meyilləri, onun mahiyyəti öyrənilmədən, ölkənin iqtisadi potensialı, sənaye sahələrinin təklifi dəyərləndirilmədən inkişafa nail olmaq mümkün deyildir. Hazırda ölkənin bütün regionlarında iqtisadi potensialı dövriyyəyə qoşmaq üçün lazımi tədbirlər görülür.

Davamlı sosial-iqtisadi tərəqqi, təbii ki, geniş, iki, üç və çoxformatlı beynəlxalq iqtisadi əməkdaşlıq zəminində baş verir. Dövlətlərarası ticari əlaqələrin çoxşaxəliliyi hər bir ölkənin sosial-iqtisadi inkişafına, siyasi stabilliyinə təsir edən mühüm amillərdəndir. 2015-ci ilin yanvar-aprel aylarında Azərbaycan rezidentləri dünyanın 126 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişlər. 80 ölkəyə əmtəə ixrac olunmuş, 113 ölkədən idxal olunmuşdur. Dörd ayda xarici ölkələrlə 7673,4 milyon ABŞ dolları həcmində ticarət, o cümlədən 4270,3 milyon dollarlıq ixrac və 3403,1 dollarlıq idxal əməliyyatları aparılmışdır. Bu prosesdə 867,2 milyon dollarlıq müsbət saldo yaranmışdır. 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə əmtəə mübadiləsinin dəyəri müqayisəli qiymətlərlə 15,4 faiz artmışdır. Qeyri-neft məhsullarının 596,5 milyon dollar dəyərində ixracı ötənilki müvafiq ayların səviyyəsindən 34,9 faiz çox olmuşdur.

Bu əlaqələr iqtisadiyyatın nə qədər çox sahələrini əhatə etsə, dinamik inkişaf o qədər də intensiv olar. Azərbaycan rəhbərliyi bu mövqedən çıxış edir. İqtisadi siyasətdə müasir, rəqabətədavamlı, dayanıqlı iqtisadiyyatın yaradılması prioritetdir. Ölkədə xarici tərəfdaşlarla ticari dövriyyənin dinamikası daim öyrənilir, potensial imkanlar aşkara çıxarılır və səmərəli istifadə olunur. Bu tərəflərin marağına müvafiq olan proses, təbii ki, qarşı tərəfi cəlb edir və bir dövlət kimi əlaqələrin genişləndirilməsinin marağında olur. Çünki maraqları təmin edən dövlətlərarası iqtisadi-ticari əlaqələrin çoxşaxəliliyi və qloballaşması həmin tərəflərin də sosial-iqtisadi inkişafına, bütöv regionda sabitliyin təmininə güclü təsir edən mühüm amillərdəndir.



Dövlətimizin və xalqımızın ümummilli məqsəd və mənafeləri hər bir fəaliyyət sahəsində prioritetdir. Bu istiqamətdə davamlı surətdə yürüdülən siyasət sayəsində öz müstəqilliyini bərpa etmiş ölkəmiz qlobal iqtisadi və maliyyə böhranından zərər çəkməmiş, əksinə geniş, davamlı inkişaf yoluna çıxmış, dayanıqlı iqtisadiyyata nail olmuşdur. Dövlət başçısı qazanılmış uğurların düşünülmüş siyasətin və mövcud reallığın nəticəsi olduğu barədə deyib: “Bizim düşünülmüş siyasətimiz var. Bizim proqramlarımız reallıq üzərində qurulubdur. Hər bir məsələ, hər bir sahə ilə bağlı çox konkret fəaliyyət planı var — regionların inkişafı, işsizliyin aradan qaldırılması, sənayeləşmə, kənd təsərrüfatı”. Göründüyü kimi, əldə olunan uğurlar güclü siyasi iradə, gələcəyin elmi-praktiki əsaslarla, doğru proqnozlaşdırılması, perspektivin aydın təsəvvür edilməsi, proqramlaşdırma, reallığa əsaslanma, maneələrin düzgün qərarlar qəbul edilərək vaxtında aradan qaldırıla bilinməsi nəticəsində qazanılıb. Əldə edilən nəticələr sübut edir ki, Azərbaycanın inkişaf etmiş ölkələrin səviyyəsinə çatması üçün seçilmiş strateji kursun alternativi yoxdur, dövlətin daha da qüdrətli olmasına istiqamətlənib.

**Ataş CƏBRAYILOV,**
**“Respublika”.**